# AZƏRBAYCAN İQTİSADİYYATININ REGİONAL TƏHLİLİ

**Elşən Bağırzadə**
*iqtisad üzrə fəlsəfə doktoru*

**Bakı - 2014**

# AZƏRBAYCANIN İQTİSADİ RAYONLARI



# ABŞERON İQTİSADİ RAYONU

- **Ərazisi:** 3, 29 min km2
- **Əhalisi:** 538,4 min nəfər
- **İnzibati rayonları:** Sumqayıt şəhəri, Abşeron və Xızı rayonları.
- **Təbii ehtiyatları:** Mişar daşı, əhəng daşı, sement xammalı, kvars, tikinti qumu, balneoloji sərvətlər.
- **İqtisadiyyatının əsas sahələri:** Sənaye və aqrar-sənaye kompleksi, turizm.
- **Sənaye sahələri:** neft və qazçıxarma, neft kimyası və kimya, qara və əlvan metallurgiya, energetika, yüngül və yeyinti sənayesi.
- **Aqrar sahələri:** südlük-ətlik maldarlıq, quşçuluq, qoyunçuluq, tərəvəzçilik, bostançılıq, üzümçülük, gülçülük və quru subtropik meyvəçilik. Zeytun, zəfəran, püstə və digər məhsullar yetişdirilir.
- **Xidmət sahələri:** Tikinti, nəqliyyat, rabitə, turizm və.s.
- Yerli **içməli suyu olmayan yeganə iqtisadi rayon**dur. İqtisadi rayon içməli su ilə Samur və Kür çaylarından çəkilmiş su kəmərləri vasitəsilə təmin edilir.

# ARAN İQTİSADİ RAYONU

- **Ərazisi:** 21, 43 min km2
- **Əhalisi:** 1887,3 min nəfər
- **İnzibati rayonları:** Ağdaş, Ağcabədi, Bərdə, Beyləqan, Biləsuvar, Göyçay, Hacıqabul, İmişli, Kürdəmir, Neftçala, Saatlı, Sabirabad, Salyan, Ucar, Zərdab rayonları, Mingəçevir, Yevlax və Şirvan şəhərləri.
- **Təbii ehtiyatları:** Neft, təbii qaz, yodlu və bromlu mədən suları, tikinti materialları, günəş enerjisi, su ehtiyatları, əkinə yararlı torpaq sahələri.
- **İqtisadiyyatının əsas sahələri:** Sənaye, kənd təsərrüfatı.
- **Sənaye sahələri:** Elektroenergetika, kimya, maşınqayırma, yüngül, yeyinti, tikinti materialları istehsalı. Mingəçevir şəhərinin iki elektrik stansiyasının istehsal etdiyi enerji ölkədə istehsal edilən enerjinin təxminən 60 faizi həcmindədir.
- **Aqrar sahələri:** Pambıqçılıq, taxılçılıq, üzümçülük, quru subtropik meyvəçilik, bostançılıq. Azərbaycanda istehsal olunan pambığın 90 faizdən çoxu bu rayonun payına düşür. İqtisadi rayonda həmçinin kartof, şəkər çuğunduru əkilir.
- **Xidmət sahələri:** Nəqliyyat, rabitə və.s.

# DAĞLIQ ŞİRVAN İQTİSADİ RAYONU

- **Ərazisi:** 6, 06 min km2
- **Əhalisi:** 295,9 min nəfər
- **İnzibati rayonları:** Ağsu, İsmayıllı, Qobustan və Şamaxı rayonları.
- **Təbii ehtiyatları:** Daş, çınqıl, qum, əhəng, gil və tikinti materialları, mineral sular.
- **İqtisadiyyatının əsas sahələri:** Kənd təsərrüfatı, sənaye, turizm və xalq sənətkarlığı.
- **Sənaye sahələri:** Yeyinti və yüngül.
- **Aqrar sahələri:** Əkinçilik, üzümçülük, şərabçılıq və heyvandarlıq. Əkinçilikdə aparıcı yeri taxılçılıq tutur.
- **Xidmət sahələri:** Nəqliyyat, turizm və.s.

# GƏNCƏ-QAZAX İQTİSADİ RAYONU

- **Ərazisi:** 12,48 min km2
- **Əhalisi:** 1216,1 min nəfər
- **İnzibati rayonları:** Ağstafa, Daşkəsən, Gədəbəy, Goranboy, Göygöl, Qazax, Samux, Şəmkir, Tovuz rayonları, Gəncə və Naftalan şəhərləri.
- **Təbii ehtiyatları:** Dəmir filizi, alunit, əhəngdaşı, mərmər, gips, seolit, sement xammalı, hidroenerji və təbii-rekreasiya ehtiyatları.
- **İqtisadiyyatının əsas sahələri:** Kənd təsərrüfatı, sənaye, turizm və xalq sənətkarlığı.
- **Sənaye sahələri:** Hasiledici və emaledici: Qara və əlvan metallurgiya, maşınqayırma, yüngül, yeyinti və tikinti sənayesi.
- **Aqrar sahələri:** Kartofçuluq, üzümçülük, taxılçılıq, bostançılıq, tərəvəzçilik, meyvəçilik və heyvandarlıq. Azərbaycan Respublikası üzrə kənd təsərrüfatı məhsulunun 13-14 faizi, o cümlədən, kartofun 80-85 faizi, üzümün 28 faizi, heyvandarlıq məhsullarının 15 faizi bu rayonun payına düşür.
- **Xidmət sahələri:** Nəqliyyat, turizm, təhsil və.s

# QUBA-XAÇMAZ İQTİSADİ RAYONU

- **Ərazisi:** 6,96 min km2
- **Əhalisi:** 511,7 min nəfər
- **İnzibati rayonları:** Şabran, Xaçmaz, Quba, Qusar və Siyəzən rayonları.
- **Təbii ehtiyatları:** Neft, təbii qaz, yanar şist, qum, çınqıl, gil, su ehtiyatları, zəngin təbii-rekreasiya ehtiyatları.
- **İqtisadiyyatının əsas sahələri:** Kənd təsərrüfatı, sənaye, turizm və xalq sənətkarlığı.
- **Sənaye sahələri:** Hasilat, yüngül, yeyinti.
- **Aqrar sahələri:** Tərəvəzçilik, meyvəçilik, taxılçılıq, heyvandarlıq.
- **Xidmət sahələri:** Nəqliyyat, turizm və.s.

# NAXÇIVAN İQTİSADİ RAYONU

- **Ərazisi:** 5,5 min km2
- **Əhalisi:** 427,2 min nəfər
- **İnzibati rayonları:** Naxçıvan şəhəri, Şərur, Babək, Ordubad, Culfa, Şahbuz, Kəngərli və Sədərək rayonları.
- **Təbii ehtiyatları:** Molibden, polimetal filizlər, daşduz, dolomit, mərmər, tikinti materialları və mineral su ehtiyatları. Azərbaycan Respublikasının molibden və dolomit ehtiyatlarının hamısı, mineral su ehtiyatlarının 60 faizi Naxçıvan iqtisadi rayonunun payına düşür. Regionda iki yüzdən çox mineral su ehtiyatı vardır.
- **İqtisadiyyatının əsas sahələri:** Sənaye, kənd təsərrüfatı, xidmət.
- **Sənaye sahələri:** Enerji, elektronik məhsullar, sement, şəkər, qida, alüminium boşqablar, mebel istehsalı, ipəkçilik, xalçaçılıq və toxuma-trikotaj.
- **Aqrar sahələri:** Tütünçülük, üzümçülük, meyvəçilik, tərəvəzçilik, taxılşılıq, xınaçılıq, şəkər çuğunduru istehsalı, ət-süd və yun istehsalı, arıçılıq və balıqçılıq.
- **Xidmət sahələri:** Nəqliyyat, turizm, elm, təhsil və.s

# LƏNKƏRAN İQTİSADİ RAYONU

- **Ərazisi:** 6,07 min km2
- **Əhalisi:** 868,1 min nəfər
- **İnzibati rayonları:** Astara, Cəlilabad, Lerik, Masallı, Yardımlı və Lənkəran rayonları.
- **Təbii ehtiyatları:** Mişar daşı, çay daşı, qum, gil, çınqıl, termal-mineral sular. Dünyada mövcud 11 iqlim qurşağından 7-sinə bu iqtisadi rayonun ərazisində rast gəlinir. Ərazinin 26%-i meşəlikdir.
- **İqtisadiyyatının əsas sahələri:** Aqrar-sənaye kompleksi, turizm.
- **Sənaye sahələri:** Yeyinti, yüngül, meşə sənayesi.
- **Aqrar sahələri:** faraş tərəvəzçilik, çayçılıq, üzümçülük, taxılçılıq sitrus meyvəçiliyi, balıqçılıq, quşçuluq, Azərbaycan Respublikasında istehsal olunan çayın 99 faizi, tərəvəzin 27 faizi, taxılın 15 faizi, kartofun 24 faizi, üzümün 13 faizi, meyvənin 10 faizi bu iqtisadi rayonun payına düşür.
- **Xidmət sahələri:** Nəqliyyat, turizm, təhsil və.s

# KƏLBƏCƏR-LAÇIN İQTİSADİ RAYONU

- **Ərazisi:** 6,4 min km2
- **Əhalisi:** 236,4 min nəfər
- **İnzibati rayonları:** Kəlbəcər, Laçın, Zəngilan və Qubadlı rayonları. İqtisadi rayona daxil olan bütün inzibati rayonlar erməni işğalı altındadır.
- **Təbii ehtiyatları:** Qızıl, civə, mərmər, üzlük tikinti daşları, kopal, perlit
- **İqtisadiyyatının əsas sahələri:** Kənd təsərrüfatı, sənaye, turizm.
- **Sənaye sahələri:** Yeyinti və yüngül.
- **Aqrar sahələri:** Qoyunçuluq, maldarlıq, arıçılıq.
- **Xidmət sahələri:** Nəqliyyat, turizm

# ŞƏKİ-ZAQATALA İQTİSADİ RAYONU

- **Ərazisi:** 8,96 min km2
- **Əhalisi:** 587,7 min nəfər
- **İnzibati rayonları:** Balakən, Qax, Qəbələ, Oğuz, Zaqatala və Şəki rayonları.
- **Təbii ehtiyatları:** Mis, kükürd kolçedanı, qurğuşun, sink, çınqıl, qum, tikinti materialları, su ehtiyatları. Azərbaycan Respublikasının mis ehtiyatlarının hamısı, kükürd kolçedanının 90 faizi, qurğuşunun 97 faizi, sinkin 99 faizi bu iqtisadi rayonun payına düşür.
- **İqtisadiyyatının əsas sahələri:** Kənd təsərrüfatı, yüngül və yeyinti sənaye sahələri, turizm.
- **Sənaye sahələri:** Yüngül və yeyinti.
- **Aqrar sahələri:** Tütünçülük, baramaçılıq, meyvəçilik, taxılçılıq, üzümçülük, ət-süd və ət-yun təmayüllü qoyunçuluq. Azərbaycanda istehsal olunan tütünün 75 faizdən çoxu, taxılın 17 faizi, baramanın 35 faizi, yaşıl çay yarpağının 2 faizi bu iqtisadi rayonun payına düşür.
- **Xidmət sahələri:** Nəqliyyat, turizm və.s

# YUXARI QARABAĞ İQTİSADİ RAYONU

- **Ərazisi:** 7,25 min km2
- **Əhalisi:** 636,9 min nəfər
- **İnzibati rayonları:** Ağdam, Tərtər, Xocavənd, Xocalı, Şuşa, Cəbrayıl, Füzuli rayonları və Xankəndi şəhəri. İqtisadi rayonun Xocavənd, Xocalı, Şuşa, Cəbrayıl rayonlarının və Xankəndi şəhərinin əraziləri tamamilə, Ağdam və Füzuli rayonlarının əraziləri isə qismən erməni işğalı altındadır.
- **Təbii ehtiyatları:** Polimetal filiz yataqları, tikinti materialları, mineral sular. Erməni işğalçıları iqtisadi rayonun başqa sərvətlərini qarət etdikləri kimi meşələrdə qiymətli ağac növlərini də qırıb Ermənistana daşımaqla rayonun nadir meşə faunasını talan etməkdədir.
- **İqtisadiyyatının əsas sahələri:** Kənd təsərrüfatı, sənaye və turizm.
- **Sənaye sahələri:** Yeyinti və yüngül.
- **Aqrar sahələri:** Üzümçülük, taxılçılıq, meyvəçilik, tütünçülük, tutçuluq, arıçılıq, heyvandarlıq.
- **Xidmət sahələri:** Nəqliyyat, turizm və.s

# HƏYATA KEÇİRİLƏN BAŞLICA REGİONAL İNKİŞAF PROQRAMLARI

- "***Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)***“ (11 fevral 2004)
- "***Bakı şəhərinin qəsəbələrinin 2006-2007-ci illər üzrə sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair Tədbirlər Proqramı***" (27 fevral 2006)
- "***Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı***"  (14 aprel 2009)
- "***2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı***" (4 may 2011)
- “***2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı***” (17 yanvar 2014)
- "***Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı***" (27 fevral 2014)

# HƏYATA KEÇİRİLƏN BAŞLICA REGİONAL İNKİŞAF PROQRAMLARI

- Regional inkişaf üzrə hər iki dövlət proqramlarının icrası dövründə bütün iqtisadi rayonlara daxil olan şəhər və rayonların sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə ***240 sərəncam*** imzalanmışdır.

# I VƏ II REGİONAL İNKİŞAF PROQRAMLARININ İCRASININ ƏSAS NƏTİCƏLƏRİ

- Qeyri-neft sektorunun inkişafı;
- Əhalinin işgüzar fəallığının artması;
- İstehsal infrastrukturu sahələrinin inkişafı;
- Kommunal xidmətlərin və sosial infrastruktur təminatının yaxşılaşması;
- Sahibkarlıq mühitinin yaxşılaşması;
- İnvestisiya qoyuluşunun artması;
- Beynəlxalq tələblərə cavab verən rəqabətqabiliyyətli və ixracyönümlü məhsullar istehsal edən yeni müəssisə və obyektlərin yaranması;
- İşsizliyin azalması;
- Yoxsulluq səviyyəsinin azaldılması.

# I VƏ II REGİONAL İNKİŞAF PROQRAMLARININ İCRASININ ƏSAS NƏTİCƏLƏRİ

- **2004-2014-ci illər arası 10 ildə**:
  - ÜDM 3,2 dəfə, adambaşına ÜDM-in həcmi 2,8 dəfə, sənaye 2,7 dəfə, kənd təsərrüfatı 1,5 dəfə, investisiyalar 6,5 dəfə, əhalinin gəlirləri 6,5 dəfə, qeyri-neft sektoru 2,6 dəfə artmış və ölkədə orta illik iqtisadi artım 12,9 % təşkil etmişdir.
  - Strateji valyuta ehtiyatları 31 dəfə, xarici ticarət dövriyyəsi 6,6 dəfə, ixrac 9,3 dəfə, idxal 4,1 dəfə, qeyri-neft ixracı 4,7 dəfə artmışdır.
  - Dövlət büdcəsinin gəlirləri 16 dəfə, orta aylıq əmək haqqı 5,5 dəfə, pensiyalar 9,6 dəfə, əhalinin əmanətləri 27 dəfə artmışdır.
  - Daxili investisiyalar 14,6 dəfə, qeyri-neft sektoruna investisiyalar 12,9 dəfə artmış, regionlara bütün mənbələr hesabına 50,7 milyard manat vəsait yönəldilmişdir.

# I VƏ II REGİONAL İNKİŞAF PROQRAMLARININ İCRASININ ƏSAS NƏTİCƏLƏRİ

- **2004-2014-ci illər arası 10 ildə**:
  - 1,2 milyondan çox yeni, o cümlədən 900 min daimi iş yeri açılmış, 55,6 min yeni müəssisə yaradılmışdır. Yeni açılmış iş yerlərinin 80 faizə yaxını regionların payına düşmüşdür.
  - 2003-cü ildə ölkə iqtisadiyyatına qoyulmuş investisiyaların ümumi həcminin yalnız 26,8 faizi daxili mənbələrdən maliyyələşirdisə, 2013-cü ildə daxili investisiyaların xüsusi çəkisi 62,5 faizə çatmışdır.
  - 14-ü regionlarda olmaqla, 35 beş ulduzlu otel istifadəyə verilmişdir.

# AZƏRBAYCAN İQTİSADİYYATINDA BAKININ YERİ (2012)

- hüquqi şəxs statuslu təsərrüfat subyektlərinin 53%-i;
- məhsul buraxılışının 72,3%-i;
- sənaye məhsulu istehsalının 89,3%-i;
- pərakəndə ticarət dövriyyəsinin 50,2%-i;
- əsas kapitala yönəldilmiş vəsaitlərin 61,7%-i;
- iqtisadiyyatda muzdla işləyənlərin 45%-i;
- əhali gəlirlərinin 53,6%-i.

# QARŞIDAKI İLLƏRDƏ REGİONAL İNKİŞAF SİYASƏTİNİN ƏSAS MƏQSƏDLƏRİ

- Ölkədə qeyri-neft sektorunun inkişafı;
- İqtisadiyyatın diversifikasiyası;
- Kəndlərin inkişafı ilə bağlı infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılması;
- İxracyönümlü və rəqabətədavamlı məhsul istehsalı istiqamətində sahibkarlığın inkişafının sürətləndirilməsi;
- Əhalinin, xüsusi ilə kənd əhalisinin məşğulluq səviyyəsinin artırılması;
- Yoxsulluğun səviyyəsinin azaldılması.

# İSTİFADƏ OLUNAN MƏNBƏLƏR


- Aras O. N., Süleymanov E. (2010), "Azərbaycan iqtisadiyyatı", Bakı: Şərq-Qərb. http://ebooks.azlibnet.az/book-qUreBt0n.html
- Azərbaycanın statistik göstəriciləri. http://www.stat.gov.az/menu/6/statistical_yearbooks/
- Bağırzade E. (2011), "Bağımsızlığının XX. Yılında Azerbaycan Cumhuriyeti Ekonomisi", Hacettepe Üniversitesi Türkiyat Araştırmaları Dergisi, Güz (15), s. 277-312. http://elsenbagirzade.files.wordpress.com/2011/03/bagimsizliginin-20-yilinda.pdf
- "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramı (2004-2008-ci illər)", http://files.preslib.az/site/region/gl1.pdf
- "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafi dövlət proqramı", http://economy.gov.az/index.php?option=com_content&view=article&id=196:regional-development-program-2009-2013&catid=28:regions-of-the-socio-economic-development-of-the-state-program&lang=az
- "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafi dövlət proqrami", http://economy.gov.az/index.php?option=com_content&view=article&id=2097:dovlet-proqrami-2014-2018&catid=116:2014-2018-dp-reg&lang=az
- Azərbaycan Respublikası Prezidentinin çıxışları: https://www.youtube.com/watch?v=5SM3_6nDrKQ , https://www.youtube.com/watch?v=It9VBbEb8ys